# Yeni Kaledoniya Konqresinin nümayəndə heyəti Bakıda Müqəddəs Məryəm Kilsəsini ziyarət edib





Azərbaycanda səfərdə olan Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Naisseline Omayranın rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 17-də Bakıdakı Müqəddəs Məryəm Katolik Kilsəsində olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete kilsənin tarixi, burada katoliklərin ibadət etmələri üçün yaradılan şərait barədə qonaqlara məlumat verib.

Bildirilib ki, bu kilsənin yerləşdiyi ərazi Roma-katolik kilsəsinin ənənəsinə uyğun olaraq təqdis edilib. Rəsmi açılışı 2008-ci ilin martında keçirilən kilsədə eyni vaxtda 250-300 nəfər ibadət edə bilir.

Yepiskop 2008-ci ildə Heydər Əliyev Fondu tərəfindən Müqəddəs Ruhun həvarilərə nazil olmasını təsvir edən klassik vitrajın və Müqəddəs Rozariyanın dualarındakı sirlərdən bəhs edən keramik pannonun kilsəyə hədiyyə olunduğu barədə də Yeni Kaledoniya nümayəndə heyətinə məlumat verib.

Fotoguşə və eksponatlarla ətraflı şəkildə tanışlıq qonaqlarda xoş təəssürat yaradıb.

Bakıdakı Müqəddəs Məryəm Kilsəsi 1915-1931-ci illərdə mövcud olmuş Müqəddəs Bakirə Məryəmin kosteli ilə eyni adı daşıyır. Kilsə 2006-2007-ci illərdə əsaslı bərpa edilib.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 18 aprel, № 77.- S.5.